Referans
Klinik Laboratoriya Mərkəzi
&
Poliklinik

# UROGENİTAL İNFEKSİYALAR 7-Lİ PANEL

**Cinsi yolla keçən infeksiyalar (CYKİ) – bir insandan digərinə əsasən seksual əlaqə zamanı (cinsi yolla) keçən xəstəliklərdir.**

CYKİ-ın qəddarlığı ondadır ki, onlar çox vaxt heç bir əlamətlə özlərini büruzə vermir və ya bu simptomlar çox zəif dərəcədə ifadə oluna bilirlər.

**Cinsi yolla keçən infeksiyalar aşağıdakı yollarla ötürülə bilər:**

- Cinsi əlaqə zamanı;
- Qeyri-steril tibbi alətlərdən istifadə edilməsi ilə;
- Xəstənin qanı ilə kontaktda olduqda;
  Tək-tək hallarda xəstələrin məişət və şəxsi gigiyena əşyalarından istifadə etdikdə.

## Cinsi yolla keçən infeksiyaların əsas əlamətləri aşağıdakılardır:

Cinsi orqanlar sahəsində qaşınma və yandırma hissiyyatı

Çox tez-tez və ağrılı sidik ifrazı

Cinsi orqanlardan qeyri-adi görünüşlü və qoxulu selik ifrazının olması

Cinsi orqanlar və anus sahəsində qızartının olması

Bədəndə səpgilərin əmələ gəlməsi

Limfatik düyünlərin (əsasən qasıq nahiyəsində) böyüməsi

Cinsi orqanlarda və anus ətrafında, ağızda, dodaqlarda xoraların, suluqlu qabarcıqların və sızanaqların meydana gəlməsi

Qadın və kişilərdə - qarının aşağı hissəsində ağrıların yaranması; qadınlarda cinsi əlaqə zamanı uşaqlıq yolunda olan ağrılar, aybaşılar arası dövrdə uşaqlıq yolundan qan qarışıqlı ifrazatın olması.

**CYKİ gizli şəkildə də keçə bilərlər!** Buna görə də ailə qurmaq istəyində olan hər bir cütlük (həm kişi, həm də qadın) bu infeksiyalara görə tam müayinə keçməli və lazım gəldikdə isə müalicə kursu almalıdırlar! Bu gələcəkdə sağlam uşaq olmasını planlaşdıran hər bir cütlük üçün çox vacibdir!!!

**Qeyd:** Gizli gedişata malik olduğu üçün ildə bir dəfə müayinədən kecmək məsləhətlidir!

*0033
ÇAĞRI MƏRKƏZİ

Referans
Klinik Laboratoriya Mərkəzi
&
Poliklinik

## UROGENİTAL İNFEKSİYALAR:

- ✓ Chlamydia trachomatis (CT) (CE0086)
- ✓ Neisseria gonorrhoeae (NG)
- ✓ Trichomonas vaginalis (TV)
- ✓ Mycoplasma genitalium (MG)
- ✓ Ureaplasma urealyticum (UU)
- ✓ Ureaplasma parvum (UP)
- ✓ Mycoplasma hominis (MH)

**Urogenital infeksiyaların təyinində yeni test paneli**

## "Urogenital İnfeksiyalar 7-li Panel"

- Real-Time PCR üsulu vasitəsi ilə urogenital infeksiyalara səbəb olan 7 bakteriya bir arada təyini.

**Eyni zamanda birdən çox bakteriyani aşkar etmə qabiliyyətinə malik olduğu üçün, cavabların cixma müddəti də azalır. 48 saat ərzində nəticələrinizi əldə edə biləcəksiz.**

## Meterial:

- Genital yaxma (uretral, vaginal, servikal)
- Maye əsaslı sitoloji nümunə (məsələn, ThinPrep® və SurePath ™)
- Sidik

**Qeyd:** **"Urogenital infeksiyalar 7-li Panel"**in cavabı neqativ olduqda, lakin simptomlar davam etdiyi halda **"Bakterial Vaginoz Paneli"** ndən yararlana bilərsiziniz.

## !Nəticələr Kəmiyyətcə təqdim edilir!



